*Zəminə İBADOVA,*
*Kitabxanaşünaslıq kafedrasının laborantı*

## AĞSAQQAL MÜƏLLİMİM HAQQINDA ÜRƏK SÖZLƏRİM

Hörmətli müəllimim, kafedra müdirim, elmi rəhbərim, Əməkdar elm xadimi, professor Abuzər Xələfovun bu il 75 illik yubileyi qeyd olunur. Rəhbərim haqqında ürək sözlərimi yazarkən az da olsa neçə illər öncə tələbəlik illərinə qayıtmaq istərdim.

Mən 1991-ci ildə Bakı Dövlət Universitetinə qəbul olunanda Abuzər müəllim dekan vəzifəsində işləyirdi. Tale elə gətirdi ki, hələ tələbə ikən, yəni 1994-cü ildən fakültəmizdə işləməli oldum. Az sonra isə Abuzər müəllim Kitabxanaşünaslıq kafedrasına rəhbərlik etdi və xoşbəxtlikdən sonralar mən də bu kafedrada laborant işlədim. Mən fəxr edirəm ki, Abuzər müəllimlə bir yerdə çalışmışam və çalışıram da. Onun haqqında ürəkdən söhbət açmağı özümə borc bilirəm. Çünki Abuzər müəllim gənclərin düzgün yol seçməsində, elm aləmində uğur qazanıb yüksəlməsində öz köməyini əsirgəmir və çətin məqamlarda onları müdafiə edir.

Etiraf edirəm ki, Abuzər müəllimin mənim də üzərimdə böyük zəhməti var. Mən universiteti bitirdiyim il onun xeyir-duası ilə təhsilimi aspiranturada davam etdirib, onun aspirantı olmaqdan şərəf duydum. Aspiranturanı bitirdikdən sonra da kafedramızın əməkdaşı kimi bu böyük şəxsiyyətlə demək olar ki, hər gün üz-üzə gəlir və ünsiyyətdə oluram.

Kitabxanaşünaslıq kafedrasına rəhbərlik fəaliyyətini ömrün müdriklik yaşında da davam etdirən Abuzər müəllim öz çevikliyi və işgüzarlığı ilə seçilir. O, bu gün də həvəslə, inamla, enerji ilə yazıb-yaradır.



Abuzər müəllim yaxşı müəllim olması ilə yanaşı, istedadlı alim, qayğıkeş insan, vətənpərvər ziyalı və kollektivimizin möhtərəm ağsaqqalıdır.

Abuzər müəllim 75 illik ömrünün çox hissəsini doğma kollektivinin inkişafına və formalaşmasına sərf etmişdir.

Respublikanın elə bir rayonu, kəndi olmaz ki, onun dərs dediyi, yetişdirdiyi insanlara rast gəlməyəsən. Abuzər müəllim sevildiyi qədər də tələbələrini sevir, onlarla fəxr edir.

Onun kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq ixtisasına, kitabxanaçılıq sənətinə olan hörməti, sevgisi o qədərdir ki, bu sənətə barmaqarası baxanlara, bu peşəni sevməyənlərə qarşı həmişə mübarizə aparmış, öz barışmaz mövqeyi ilə seçilmiş, prinsipial sözünü demişdir.

Azərbaycanda kitabxana işi tarixinin öyrənilməsində, onun metodologiyasının və tədqiqat metodlarının təkmilləşdirilməsində prof. A.Xələfovun böyük xidmətləri olmuşdur. Onun qələmindən çıxmış yüzlərlə elmi məqalə, kitab, dərs vəsaiti, dərslik, monoqrafiya və başqa əsərlər öz müəllifinə əbədi şöhrət gətirir.

Abuzər müəllim eyni zamanda gözəl ailə başçısıdır və həm ata, həm də baba kimi şərəfli bir ad daşıyır.

**Hörmətli acsaqqal alimimiz bu gün ömrünün müdriklik çağlarını yaşayır. İrəlidə onu neçə-neçə fərəhli illər və elmi uğurlar gözləyir. Abuzər müəllimi yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona cansağlıbı və yaradıcılıq nailiyyətləri arzulayıram!**